***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, 30 ilə qədər Ermənistanın işğalı altında qalmış rayon və kəndlərimiz tamamilə dağılıb, talanıb, oğurlanıb, amma biz bu əraziləri bərpa edəcəyik, dirçəldəcəyik, hər bir yaşayış məntəqəmizə yeni həyat verəcəyik. Xeyli müddətdir ki, işğaldan azad olunmuş ərazilərdə tikinti-bərpa işlərinə başlanılıb. Artıq Füzulidən Şuşaya yeni avtomobil yolu çəkilir. Dövlət başçısı bu yolu Zəfər yolu adlandırıb. Yaxın vaxtlarda Bərdə–Ağdam yolunun çəkilişinə başlanacaq. Horadizdən Zəngilana qədər yol çəkiləcək.***



# İşğaldan azad olunmuş ərazilərdə əməkdaşlıq üçün geniş imkanlar var

Martın 15-də isə Prezident Füzuli və Xocavənd rayonlarına növbəti səfəri zamanı yeni bərpa işlərinin anonsunu verib. Səfər çərçivəsində bir sıra obyektlərin, o cümlədən, Füzuli–Hadrut avtomobil yolunun təməli qoyulub. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Füzuli–Hadrut avtomobil yolu öz başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl–Şükürbəyli avtomobil yoluna birləşir.

Azərbaycan lideri həmin ərazilərə səfərləri zamanı həmişə dünyaya mesaj verib ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan edib, tarixi irsimizi silməyə çalışıb. Amma buna nail ola bilməyib. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Dövlət başçısı işğaldan azad edilmiş Xocavənd rayonuna gedərkən, yol boyunca bütün yaşayış məntəqələrinin dağıdıldığını qeyd edib. Füzuli şəhəri o dərəcədə dağıntıya məruz qalıb ki, şəhərdə Azərbaycan bayrağını ucaltmaq üçün salamat bina tapmaq mümkün olmayıb. Prezident bildirib ki, şəhərdən əsər-əlamət qalmayıb. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi: “Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!”

Prezident İlham Əliyev aprelin 1-də Dünya Bankının regional direktoru Sebastian Molineusu qəbul edərkən də bu məsələyə toxunub. Bildirib ki, işğaldan azad olunmuş ərazilərdə əməkdaşlıq üçün yeni imkanlar var: “Orada infrastrukturun inkişafına böyük ehtiyac var. Çünki bütün infrastruktur dağıdılmışdır və insanları qaytarmaq üçün biz, əlbəttə ki, minalardan təmizləmə işlərini, sonra isə yenidənqurma işlərini həyata keçirməliyik. İnfrastruktur layihələri olmadan məcburi köçkünləri və qaçqınları qaytarmaq mümkün olmayacaq. Odur ki, biz bu məsələlərdə də Dünya Bankı ilə əməkdaşlığa güvənirik”.

Dövlət başçısı martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının qeyri-formal Zirvə görüşündə də müharibənin başa çatdığını, bərpa işlərinə başlandığını və yeni imkanlar yarandığını qeyd edib. Onun sözlərinə görə, hazırda Zəngəzur dəhlizi üzərində çox fəal iş aparılır. Vaxtilə türk dünyasının bədəninə xəncər kimi saplanmış Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq.

***Ələşrəf NİFTİYEV,***
***Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü***

Xalq qəzeti 2021.- 7 aprel.- S.3.